**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**AYNUR ƏLİXAN qızı ƏLİYEVA**

# XƏYYAM MİRZƏZADƏ YARADICILIĞINDA KİNO MUSİQİSİNİN ROLU

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

*Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Musiqi tarixi” kafedrasında yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | Azərbaycan Respublikasının əməkdar müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor<br>**Gülnaz Abutalıb qızı Abdullazadə** |
| **Rəsmi opponentlər:** | Sənətşünaslıq üzrə elmlər doktoru, professor<br>**Cəmilə İsmayıl qızı Həsənova**<br><br>Azərbaycan Respublikasının<br>Əməkdar Mədəniyyət işçisi,<br>Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent<br>**Ellada Əlihüseyn qızı Hüseynova** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Musiqi və onun tədrisi metodikası” kafedrası** |

Müdafiə «____» noyabr 2018-ci ildə saat 12:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» oktyabr 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.MƏMMƏDOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Azərbaycanın görkəmli bəstəkarlarından biri olan Xəyyam Hadı oğlu Mirzəzadənin yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində dəyərli yer tutur. Sənətçinin dəyərli irsi həm musiqi ifaçıları, həm də bəstəkar yaradıcılığının tədqiqatçıları və musiqisevərləri üçün xüsusi əhəmiyyət və böyük maraq kəsb edir.

Teatr və kino musiqisi X.Mirzəzadənin yaradıcılığında mühüm yer tutur. Bəstəkar bir çox bədii, sənədli, cizgi filmlərinə musiqi bəstələmişdir. Bəzi kinofilmlərin musiqisi simfonik orkestr üçün yazılan süita, kompozisiya və illüstrasiya kimi işlənilmişdir və musiqili tətbiqi sənətin ən dəyərli nümunələrindən hesab oluna bilər.

X.Mirzəzadə dövrümüzün ən tanınmış və gözə çarpan bəstəkarlarından sayılır. O, bir sənətkar kimi özünəməxsus üslubunu, mövqeyini və dəsti-xəttini daim nümayiş etdirmişdir. Bu baxımdan bəstəkar, hər zaman əsərlərində öz yaradıcılıq simasını qoruyub saxlayan sənətkardır.

X.Mirzəzadənin zəngin yaradıcılığı, müxtəlif janr və formalarda yazdığı əsərləri hər zaman Azərbaycan musiqişünaslarının diqqət mərkəzində olub, tədqiqatçılar tərəfindən araşdırılıb və müxtəlif əsərləri məqalə, diplom işləri, dissertasiyalarda öz əksini tapıb. Bəstəkarın müraciət etdiyi sahələrin çoxuna toxunulub, təhlil olunub, lakin kino musiqisi onun yaradıcılığında nisbətən az tədqiq olunan bir sahədir.

Təqdim olunan dissertasiyada bəstəkarın kino musiqisinin əsasında yazılan müstəqil simfonik əsərlərinin kompleksli təhlili və obrazlı-emosional icmalı verilir. Eyni zamanda bu əsərlərdə Azərbaycan milli musiqi cizgilərinin üzə çıxarılması, bununla yanaşı müasir musiqi üslubunun struktur məsələlərini anlamaq və açıqlamaq cəhdi irəli sürülür.

Dissertasiya müəllifi əldə etdiyi materiallara müvafiq qaydada onları iri qrupa ayırmağı məqsədəuyğun hesab etmişdir: fəsillərdən birini 1960 – 1980-ci illərin kino musiqisinin partituralarının təhlili təşkil edir. Digər fəsil isə Xəyyam Mirzəzadənin 1990-2008-ci illərdə yazılan kino musiqisinin təhlilinə həsr olunmuşdur.

Bəstəkar yaradıcılığının kino sahəsinə müraciət etməyimizin səbəbi də məhz bununla izah olunur. Belə ki, müəllifin kino filmlərinə yazılan musiqisinin ardıcıl və geniş təhlili ilk dəfə olaraq təqdim olunan dissertasiyada baş verir. Bununla da təqdim olunan dissertasiyanın **aktuallığı** özünü bildirir.

**Mövzunun işlənmə dərəcəsi.** X.Mirzəzadə yaradıcılığına maraq bir çox Azərbaycan musiqişünaslarının elmi əsərlərində öz əksini tapmışdır. Dissertasiya üzərində iş zamanı X.Mirzəzadəyə və digər Azərbaycan bəstəkarlarına həsr olunmuş elmi əsər və monoqrafiyalar, diplom işləri, məqalələr, simfonik əsərlərin tədqiqinə və müxtəlif janrlara mənsub əsərlərin musiqi dili və formasına aid əsərlər, bir sıra alimlərin çoxsaylı elmi nəşrləri nəzərdən keçirilmişdir. Qeyd olunmalıdır ki, X.Mirzəzadənin yaradıcılığı ətraflı şəkildə musiqişünas-bəstəkar Kəmalə Ələsgərli tərəfindən işlənilib və araşdırılıb. Eyni zamanda o, bəstəkarın yaradıcılığına həsr etdiyi iki cildli – I hissə "Xəyyam Mirzəzadə. Fikirlər. Düşüncələr. Məqalələr"[1], II hissə "Xəyyam Mirzəzadə barəsində Yazılar, Fikirlər, Məqalələr, Düşüncələr"[2] toplusunu tərtib etmişdir. Burada X.Mirzəzadə yaradıcılıq irsi ilə bağlı musiqişünasların elmi əsərləri, həmçinin sənət dostlarının söylədikləri fikirləri, bəstəkarın yazıları, müsahibələri və onun haqqında dərc olunan məqalələr toplanılmışdır. K.Ələsgərli 2014-cü ildə işıq üzü görmüş "Xəyyam Mirzəzadə. Azərbaycanın elm və mədəniyyət xadimləri. Biblioqrafiya"[3] adlı kitabın tərtibçisidir. Kitabda bəstəkarın yaradıcılıq boyu təqdim etdiyi musiqi əsərlərinin siyahısı verilmişdir. X.Mirzəzadə yaradıcılıq irsi "Xəyyam Mirzəzadə"[4] adlı monoqrafiyada öz əksini tapmışdır. K.Ələsgərlinin bəstəkarın kino musiqisi haqqında "Musiqi dünyası" jurnalında dərc olunan "Xəyyam Mirzəzadənin kino musiqisi"[5] adlı məqaləsi də diqqətəlayiqdir. Burada müəllif ötən əsrin 50-ci illərindən başlayaraq X.Mirzəzadənin kino musiqisi sahəsində çoxillik təcrübəsini tədqiq etmiş, onun fikirlərinə istinad edərək, onun musiqisinin bəzi xüsusiyyətlərini üzə çıxarmağa imkan verir.

Azərbaycan musiqişünaslığında X.Mirzəzadənin yaradıcılığı, onun ayrı-ayrı sahələri və əsərlərinin araşdırılması hər zaman diqqəti cəlb edib və musiqişünaslıq baxımından böyük marağa səbəb olmuşdur. Bəstəkarın üslub saflığı, musiqinin hər bir sahəsini böyük zövqlə hiss etməsi, hər bir əsərin özünəməxsusluğu bu musiqi ilə tanışlığı və onun təhlilini olduqca maraqlı edir. Onu da əlavə olaraq qeyd edək ki, Azərbaycan bəstəkarlarının yazı

---

[1] Ələsgərli K.V. "Xəyyam Mirzəzadə. Fikirlər. Düşüncələr. Məqalələr." I hissə, Bakı, "Nurlan", 2011.
[2] Ələsgərli K.V. "Xəyyam Mirzəzadə. Fikirlər. Düşüncələr. Məqalələr." II hissə, Bakı, "Nurlan", 2011.
[3] Ələsgərli K.V. Xəyyam Mirzəzadə. Azərbaycanın elm və mədəniyyət xadimləri. Biblioqrafiya. Bakı, 2014.
[4] Ələsgərli K.V. Xəyyam Mirzəzadə. Bakı, 2016.
[5] Ələsgərli K.V. X.Mirzəzadənin kino musiqisi . Musiqi dünyası 4/53, 2012, səh.35-38

dəsti-xətti olduqca aydın və təqdirə layiqdir. Bu baxımdan Azərbaycan musiqişünaslığında Xəyyam Mirzəzadə yaradıcılığına nümayiş etdirilən diqqət danılmazdır. Görkəmli alim İ.Abezqauz[6] Xəyyam Mirzəzadə yaradıcılığının üslub xüsusiyyətləri haqqında dəyərli elmi tədqiqatın müəllifidir. Digər maraqlı elmi işlərdən E.Abasovanın[7], L.Karagiçevanın[8], S.Qasımovanın[9], R.Həsənovanın[10], G.Mahmudovanın[11], A.Məmmədovanın[12] məqalələrində bəstəkarın XX əsr mühüm ənənələrini özündə cəmləşdirmiş "Oçerklər-63" əsəri haqqında söhbət açılmışdır. M.İsmayılovanın[13], V.Həmidovanın[14], L.İbadovanın[15], R.Fətullayevanın[16], N.Əfəndizadənin[17], İ.Həsənovanın[18], Z.Xudiyevanın[19], Ç. Həsənovanın[20] bakalavr buraxılış işləri, M.İ.İsmayılovanın[21], V.R.Həmidovanın[22], İ.V.Həsənovanın[23], Y.Nemətlinin[24], A.A.Bünyadzadənin[25], G.R.Talıbovanın[26], K.V.Ələsgərlinin sənətşünaslıq dissertasiyaları bəstəkarın əsərlərinin ətraflı təhlilinə həsr olunmuşdur.

---

[6] Абезгауз И. Становление художника // Советская музыка. – 1967. - №3. – с.7-11;
[7] Abasova E. Sənət yollarında // "Bakı" qəzeti, 1961, 25 mart, №72.
[8] Карагичева Л. «Триптих» Х.Мирзазаде // Советская музыка. – 1974. - №9.- с.28.
[9] Qasımova S. Xəyyam Mirzəzadə // Musiqi dünyası. – 2000. - №3-4/5. – s.116-119; Блистательный Хайям (Юбилей маэстро) // Бакинский рабочий. – 2000. – 20 окт.
[10] Гасанова Р.Единственный и неповторимый // Шярги. – 2000. - №2. – с.29
[11] Махмудова Г. О роли остинатности в «Очерках – 63» Х.Мирзазаде. «Экология. Философия. Культура», 2002, выпуск 33, с.155-159
[12] Мамедова А. Особенности оркестрового письма «Очерков – 63» Х.Мирзазаде. İncəsənət və mədəniyyət problemləri, №1(23), 2009, s.169-174
[13] Ismayılova M.İ. "Xəyyam Mirzəzadənin S.Vurğunun "Komsomol" poemasına "Musiqi illüstrasiyaları", Bakı, 1998.
[14] Həmidova V. "Xəyyam Mirzəzadənin yaradıcılığında solo sonatalar", Bakı, 2001.
[15] Ибадова Л. «Metamorfozeh» Хайяма Мирзазаде, Баку, 2003.
[16] Fətullayeva R. "Xəyyam Mirzəzadənin "Ağlar və Qaralar" prelüdiyaları". Bakı, 2007.
[17] Эфендизаде Н. «Детские пьесы» Хайяма Мирзазаде». Баку, 2010.
[18] Гасанова И. «Фортепианные произведения Хайяма Мирзазаде». Баку, 1999.
[19] Xudiyeva Z. "Xəyyam Mirzəzadənin "Dəniz Neftçiləri" simfonik süitası". Bakı, 2011.
[20] Həsənova Ç. "Xəyyam Mirzəzadənin 1 saylı simfoniyası". Bakı, 2013.
[21] İsmayılova M.İ. "Xəyyam Mirzəzadənin "Mirzənin söylədikləri" simfonik lövhələri". Bakı, 2000.
[22] Həmidova V.R. "Xəyyam Mirzəzadənin yaradıcılığının üslub xüsusiyyətləri". Bakı, 2004.
[23] Гасанова И.В. "О некоторых стилевых особенностях в творчестве Х.Мирзазаде 60-х начало 70-х годов". Баку, 2001.
[24] Nemətli Y. "Azərbaycan bəstəkarlarının kvartet yaradıcılığı (1970-90-cı illər)". Bakı, 2005.
[25] Бунйатзаде А.А. "Особенности произведений для малых составов оркестра в творчестве Х.Мирзазаде". Баку, 2012.

Z.Dadaşzadənin "Simfoniyanın fəzası. 1970-ci illər Azərbaycan simfoniyası: əsas təmayüllər"[27] adlı məqaləsində bəstəkarın II simfoniyası "Triptix" haqqinda söhbət açılır, Q.Hüseynovanın "Arfa və onun Azərbaycan professional musiqisinin inkişafında yeri və rolu", "Arfa ifaçılıq ənənələrinin inkişafında kamera-instrumental musiqisinin rolu"[28], T.Quliyevin "Струнные квартеты Хайяма Мирзазаде"[29], T.Hüseynovanın "Вокальный цикл четыре эссе «Исповедь» Х.Мирзазаде на стихи Расула Рзы для голоса и симфонического оркестра"[30] və s. kitablarda fəsillər kimi verilmişdir.

Portret lövhələrindən Abasova E. "Sənət yollarında"[31], Qasımova S. "Xəyyam Mirzəzadə"[32], Herişçi H. "Xəyyamdan Qəraybəyə"[33], Əfəndiyev T. "Düşünən və düşündürən bəstəkar"[34], Şərif A. "Xəyyam Mirzəzadənin yubileyinə sözardı"[35], Qasımova S. "Блистательный Хайям"[36], Həsənova R. "Единственный и неповторимый"[37], Abdullayeva L. "По ком звонит колокол?"[38] və s. adlarını çəkə bilərik.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, burada ilk dəfə olaraq X. Mirzəzadə yaradıcılığında yer tapan təhlil olunmamış kino musiqisi ardıcıl və müfəssəl surətdə araşdırılır, əsərlərin musiqi dilinin özünəməxsusluğu təhlil olunur. Bununla bağlı olaraq onu da qeyd edək ki, dissertasiya üzərində iş apararaq biz, Azərbaycan kino musiqisinin tarixinə nəzər yetirib onun özünəməxsusluğunu, yalnız bu yaradıcılıq sahəsinə xas olan xüsusiyyətləri vurğulamaq istəmişik. Təbii ki, dissertasiyada əsas yer X.Mirzəzadənin kino musiqisinə, onun üslub xüsusiyyətlərinə ayrılır və bəstəkarın özünəməxsus musiqisini təhlil edərək əsas prinsiplərini göstərməyə çalışırıq.

---

[26] Talıbova G.R. "X.Mirzəzadənin simfonik üslubunun təkamülü (I və II simfoniyalar nümunəsində), Bakı, 2015.
[27] Dadaşzadə Z. Simfoniyanın fəzası. Bakı: Elm, 1999, s.16-22
[28] Hüseynova Q. Arfa və onun Azərbaycan professional musiqisinin inkişafında yeri və rolu // B., Adiloğlu, 2000, s.94-14
[29] Музыка республик Закавказья. «Хеловнеба», Тбилиси, 1975, с.330-331
[30] Вокально-камерные циклы в современной Азербайджанской музыке (60-80-е годы) Б. 1995, с.127-141
[31] Abasova E. "Sənət yollarında". "Bakı" qəz., 1961, 25 mart, №72(1048)
[32] Qasımova S. "Xəyyam Mirzəzadə". "Musiqi dünyası" jurnalı, 2000, № 3-4/5, s.116-119
[33] Herişçi H. "Xəyyamdan Qəraybəyə". "Azadlıq" qəz., 2000, 7-9 oktyabr
[34] Əfəndiyev T. "Düşünən və düşündürən bəstəkar". "Xalq qəzeti", 2005, 21 oktyabr.
[35] Şərif A. "Xəyyam Mirzəzadənin yubileyinə sözardı" . "525-ci qəzet", 2005, 8 oktyabr.
[36] Qasımova S. "Блистательный Хайям". Газ. «Бакинский рабочий», 2000, 20 октября
[37] Həsənova R. "Единственный и неповторимый" . "Şərq" jurnalı, 2000, 27 ноября, с.29-30
[38] Abdullayeva L. "По ком звонит колокол?", Газ. «Каспий», 2005, 4 ноября, №132

**Tədqiqatın məqsədi və vəzifələri** X.Mirzəzadənin kino musiqisində bəzi səciyyəvi xüsusiyyətlərin üzə çıxarılmasından ibarətdir. Təqdim etdiyimiz dissertasiyada aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- X.Mirzəzadənin kino musiqi yaradıcılığının əsas mərhələləri və səciyyəvi xüsusiyyətləri;
- X.Mirzəzadənin kino musiqisində Şərq və Qərb cizgilərinin araşdırılması;

Eyni zamanda, dissertasiya işində bu cəhətlərin aşkar olunması aşağıdakı amillərdə öz əksini tapmışdır:

a) kinofilmin dramaturgiyası;
b) obrazlı-emosional məzmun;
c) forma quruluşunun tərtibi;
d) musiqi dil xüsusiyyətləri;
e) orkestr dilinin özünəməxsusluğu.

**Tədqiqatın metod və metodologiyasını** X.Mirzəzadənin həyat və yaradıcılığını işıqlandıran, eyni zamanda kino sənətinə aid olan müxtəlif materiallar təşkil edir. Dissertasiyada kompleks tədqiqi metodu əsas götürülmüşdür. Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, eyni zamanda tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir. Dissertasiyada tədqiqatın metodoloji bazası, tətbiqi, kino sənətinə olan musiqi tarixi-nəzəri məsələlər kompleks metoda əsaslanır. Dissertasiya üzərində çalışaraq biz Azərbaycan musiqişünaslarının, o cümlədən, Ü.Hacıbəyli[39], L.Karagiçeva[40], E.Abasova[41], İ.Abezqauz[42], M.S.İsmayılov[43], Z.Səfərova[44], İ.Əfəndiyeva[45], R.Zöhrabov[46], Ü.İmanova[47], G.Abdullazadə[48], T.Məmmədov[49], A.Əmrahova[50] K.Ələsgər-

---

[39] Hacıbəyov Ü.Azərbaycan xalq musiqisinin əsasları. B.: 1985
[40] Карагичева Л.В. Кара Караев. М. "Сов. Композитор", 1960.
[41] Абасова Э.А. О новаторских принципах в творчестве Кара Караева. Б., 2000.
[42] Абезгауз И.В. Симфоническая поэма К.Караева " Лейли и Меджнун". М., "Сов. Композитор", 1958.
[43] Ismayılov M.S. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənmiş və tamamlanmış nəşr. B.: İşıq, 1984.
[44] Səfərova Z.Y. Ü.Hacıbəyovun yaradıcılığında nəzəri və estetik problemlər. Bakı, Elm, 1985.
[45] Əfəndiyeva İ. "Vasif Adıqezalov" monoqrafiyası (Baku: Şur, 1999);
[46] Zöhrabov R.F. Bəstəkarlarımız haqqında söz. B.: Şur, 1995.
[47] Иманова У. Святая к музыке любовь // XX əsr Azərbaycan musiqisi: Məqalələr toplusu. – Bakı, 2011. – s. 329-332

li[51] və digər musiqişünasların elmi əsərləri ilə tanış olaraq, onların metodologiyasından faydalanmışıq.

Eyni zamanda biz rus dilində yazılan bir çox müəlliflərin əsərlərindən faydalanmışıq, burada B.Asafyev[52], L.Mazel[53], V.Tsukkerman[54], Y.Xolopov[55], İ.Nestyev[56] və s. alimlərin adlarını çəkə bilərik.

Dissertasiyada tədqiqatın metodoloji bazası, musiqi tarixi, musiqi-nəzəri, tətbiqi, kino sənətinə aid olan məsələlər kompleks metoda əsaslanır.

**Tədqiqatın obyekti.** Bəstəkar Xəyyam Mirzəzadənin yaradıcı simasının müxtəlif janrda meydana çıxması, onun kino filmlərinin musiqisi əsasında yazdığı simfonik əsərlərinin obrazlı-emosional xüsusiyyətlərinin ətraflı şəkildə təhlil olunması tədqiqat işinin **obyektini** təşkil edir.

X.Mirzəzadənin özünəməxsus yazı texnikası, üslub xüsusiyyətləri, janr seçimi baxımından kino musiqisi, bəzi filmlərə olan musiqinin əsasında yazılan simfonik əsərləri təhlil olunaraq, tədqiqat işinin **predmetini** təşkil edir.

**Tədqiqatın faktiki materialını** X.Mirzəzadənin kino musiqisinin partituraları, audio və video yazıları təşkil edir. Dissertasiyanın faktiki materialı bəstəkarın şəxsi arxivindən alınaraq onun çoxsaylı kino filmlərinə yazılan musiqisi əsasında toplanılmış və təhlil olunmuşdur. Həmçinin müəllif, M.F.Axundov adına Azərbaycan Dövlət Mərkəzi Kitabxanasından, Azərbaycan Dövlət Musiqi Muzeyindən, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasından yararlanmışdır.

Dissertasiyanın müəllifi tərəfindən Xəyyam Mirzəzadənin filmləri kompakt disklərdə, video maqnitafon lentlərdə izlənilmişdir, "Bu, Qum adasında olmuşdur" (1962), "Yeddi oğul istərəm" (1970), "İlıq dənizdə buz parçası" (1983), "Zirzəmi" (1990), "O dünyadan salam" ("Ölülər" 1992),

---

[48] Abdullazadə G. "Üzeyir Hacıbəyov: Şərq-Qərb dialoqu" ("Azərbaycan milli musiqisinin tədqiqi problemləri" (elmi məqalələr toplusu), III buraxılış, Bakı, Elm, 1999)

[49] Мамедов Т. Традиционные напевы азербайджанских ашыгов. Б., Ишыг, 1988.

[50] Əmrahova A. Üslub təhlilində "cins", "növ", "freym" //Musiqi dünyası. – 2000.- №74-77; Когнитивные аспекты интерпретации современной музыки (на примере творчества азербайджанских композиторов), Б., Элм, - 2004.

[51] Ələsgərli K. Xəyyam Mirzəzadə. Bakı-2016.

[52] Асафьев Б.В. О симфонической и камерной музыке. Музыка, 1984.

[53] Мазель Л.А. Строение музыкальных произведений. Изд.2, М., Музыка, 1979.

[54] Мазель Л.А. и Цуккерман В.А. Анализ музыкальных произведений. (Элементы музыки и методика анализа малых форм). М., Из.-во "Музыка", 1967.

[55] Холопов Ю.Н. Кризис музыки XX века в ритме циклов истории. // Искусство и наука об искусстве в переходные периоды истории культуры. М., 2000. – с.275-290.

[56] Нестьев И.В. «Александр Невский» С. Прокофьева. — М.: Музыка, 1968.

"Bağ mövsümü" (1985), "Gülləlnmə təxirə salınır!..." (2002) kino filmlərinə yazılan musiqi ətraflı təhlil olunmuşdur.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işinin materialları ali və orta təhsil müəssisələrinin tədris proqramlarının, metodik tövsiyyələr və dərs vəsaitlərinin hazırlanması üçün əsas istiqamət və zəmin ola bilər. Eyni zamanda dissertasiya materiallarından Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının, Azərbaycan Milli Konservatoriyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan musiqi tarixi" kursunda Xəyyam Mirzəzadənin yaradıcılığının öyrənilməsi üçün əlavə material kimi istifadə edilə bilər.

Tədqiqatın materialları, habelə Azərbaycan kino musiqisi ilə yaxından maraqlanan tədqiqatçılar üçün də faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Hazırki iş U.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında müzakirə edilmişdir.

Dissertasiya işinin əsas müddəa və nəticələri çap olunmuş məqalələrdə və elmi-praktiki konfranslarda öz əksini tapmışdır. İşin mövzusu ilə əlaqədar olaraq müəllif tərəfindən müxtəlif məcmuələrdə, jurnallarda məqalə və məruzələr edilmişdir.

**Tədqiqatın strukturu.** Hazırki dissertasiya işi giriş, üç fəsil, altı yarımfəsil, nəticə, ədəbiyyat siyahısı, saytoqrafiya, kinofilmlərin siyahısı, not nümunələrindəndən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, elmi işlənmə dərəcəsi, elmi yeniliyi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti, faktoloji materialı, aprobasiyası və strukturu müəyyənləşdirilir.

**I Fəsil – "Azərbaycan musiqi mədəniyyətinin inkişafında bəstəkar Xəyyam Mirzəzadənin rolu"** iki yarımfəsildlən ibarətdir. **1.1. "Xəyyam Mirzəzadənin həyat və yaradıjılığının ümumi səciyyəsi"** adlanır. Bu bölmədə bəstəkarın həyat və yaradıcılığı araşdırılmış, onun musiqinin hər bir sahəsində əsl ustad kimi çıxış etməsi bir daha vurğulanmışdır. Əsərlərinin fəlsəfi məzmunu və dərinliyi, zərifliyi və mənalığı, incə yumor və milli cizgiləri X.Mirzəzadə musiqisinin məzmun və obraz aləminin genişliyini təşkil edir. Bəstəkarın musiqisində ümumbəşəri ideya və hisslər onun bitmək bilməyən bədii fantaziyasından xəbər verir və bu musiqini dinlədikdə çox füsunkar bir hisslərlə insan qəlbinə xoş təsir bağışlayan aləmə daxil

olursan. X.Mirzəzadənin bədii təfəkküründən yaranan hər bir musiqi əsəri qəlbləri oxşayan, insanı daim düşündürən fikir və hisslərlə zəngindir.

Ali amalları, yüksək peşəkarlığı və Azərbaycan musiqi mədəniyyətinə mənsub olduğunu üstün tutmaq bəstəkarın əsas prinsipləridir. Onun istinad etdiyi yaradıcılıq prinsipləri, diqqəti cəlb edən yüksək məna daşıyan məzmun, peşəkarlıq, Azərbaycan mədəniyyətinin milli köklərlə bağlılığının təzahürü əsərlərində daim hiss olunur. Dahi Q.Qarayevdən dərs almış görkəmli bəstəkarın əsərləri bəşəri xarakter daşıdığından onun yaradıcı xəzinəsi təkcə bizim deyil, dünya mədəniyyətində də tanınır. Bu gün biz deyə bilərik ki, X.Mirzəzadə Azərbaycan musiqi mədəniyyətini digər ölkələrdə bir daha tanıtmağa nail ola bilmişdir.

X.Mirzəzadənin yaradıcılığı musiqinin əsasən instrumental sahəsini əhatə edir, burada böyük simfonik orkestr üçün və bir sıra kamera instrumental əsərləri, bunlarla yanaşı teatr və kinofilmlərə yazılanlar və vokal musiqisi təşkil edir.

Eyni zamanda X.Mirzəzadə müasir bəstəkarlıq texnikasının bütün resurslarını çox geniş və böyük ustalıqla istifadə edir, bununla yanaşı öz milli yazısının ifadə vasitələrini bura daxil edir. Müasirləin həyatı, reallığımızın çoxfunksiyalı tərəfləri bəstəkarın musiqi məzmununu təşkil edir. Bir sıra kinofilmlərə və dram tamaşalarına yazılmış musiqi X.Mirzəzadə yaradıcılığında özünəməxsus yer tutmuşdur. Kinofilmlərə yazılmlş bənzərsiz musiqilər isə Azərbaycan kino musiqisinin əvəzedilməz nümunələridir. Bu janra meyl bəstəkarın musiqidə obrazlılıga üstünlük verməsilə açıqlana bilər.

Bəstəkar yaradıcılığında janrlar arasında simfonik musiqiyə daha üstünlük verir. Həmin janrda yazdığı hər bir əsər onun yaradıcılığında mühüm bir mərhələyə çevrilir.

Müasir musiqi texnıkasını dərindən mənimsəyən X.Mirzəzadə milli zəminə arxalanan bəstəkardır. Onun musiqisinin milli mənsubluğu, ideyalarını həyata keçirmək üçün milli təfəkkürün qanunauyğunluqlarına, xalq musiqisinin dərin qatlarına, qədim təbəqələrinə istinad etməsidir.

X.Mirzəzadənin müəllimlik fəaliyyəti də barlı-bəhərli olmuşdur. Ömrünün bir çox hissəsini müəllimlik fəaliyyətilə məşğul olan X.Mirzəzadə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq sinfinə rəhbərlik edib. Onun səyləri və əməyi nəticəsində bir neçə bəstəkar nəsil yetişmişdir. Hal-hazırda dünyanın bir çox ölkələrində onun məzunlarına rast gəlmək olar. Bu çətin və fədakarlıq tələb edən bir sahədə bəstəkar özünü tam məsuliyyətlə pedaqoji fəaliyyətə həsr etmişdir.

X.Mirzəzadə müasirliyin ən tanınmış bəstəkarlarındandır. O, bir sənətkar kimi yazdığı bütün janrlarda özünəməxsus üslubu, öz dəst-xətti ilə fərqlənir. Bu baxımdan bəstəkar hər zaman əsərlərində öz yaradıcılıq simasını qoruyub saxlaya bilir.

**1.2. "Azərbaycan kino musiqisi və Xəyyam Mirzəzadə yaradcılığı"** adlanır. Bu yarımfəsildə Azərbaycan kinosunun yaranması, onun inkişaf mərhələsi, ilk kino rejissorlarımız və bəstəkarlarımız haqqında məlumatlar yer almışdır. Kinomuzun sonrakı inkişaf tarixi, bu janra müraciət edən Xəyyam Mirzəzadənin əvəzedilməz musiqisi dərindən araşdırılmışdır. X.Mirzəzadə yaradıcılığında kino musiqisi mühüm yer tutur və o, ümumiyyətlə, Azərbaycan kino musiqisində uğurla işləyən bəstəkarlardan biri olmuşdur. Kino sənətinin tarixi zaman baxımından qısa müddəti əhatə etsə də, çox zəngin və maraqlıdır. Azərbaycan kinosunun inkişafında Azərbaycan bəstəkarlarının rolu danılmazdır. X.Mirzəzadə kino musiqisi üzərində də çox məhsuldar çalışmış, əsl sənətkarlıq nümunələri yaratmışdır. Bəstəkar çox böyük məsuliyyətlə, həvəslə ölkəmizdə istehsal olunan kinofilmlərə musiqi yazır. Otuzdan çox filmin musiqisi, hər biri ayrı-ayrılıqda böyük sənət əsəridir, həm də maraqlı bir fakt kimi bu musiqilərdə X.Mirzəzadə üslubu aydın hiss olunur. Bu musiqiləri dinləyərkən əsərin müəllifinin kim olduğunu dərhal anlaya bilirsən.

Azərbaycan simfonik musiqinin çox zəngin və təqdirəlayiq bir sahəsi kimi kino musiqisinin əsasında yazılan əsərlər də çıxış edir. Məlumdur ki, Q.Qarayev, F.Əmirov, A.Məlikov, X.Mirzəzadə kimi bəstəkarların bir sıra görkəmli simfonik əsərləri bilavasitə müəyyən kinofilmlərin musiqisi ilə bağlıdır. "Yeddi oğul istərəm" filminin musiqisi əsasında X.Mirzəzadənin yazdığı "İllüstrarsiyalar" əsəri də bu musiqinin bir daha möhtəşəmliyindən, ölməzliyindən xəbər verir. X.Mirzəzadənin kinofilmlərə bəstələdiyi musiqilər əsasında bashqa simfonik süitaları arasında "Mirzənin söylədikləri", "Gəzinti", "Dəniz neftçiləri", "Take Five" dinləyicilərə bəxş etdiyi dəyərli sənət nümunələridir.

Bəstəkarın müəllifi olduğu filmlər arasında müharibə mövzusu mühüm yerlərdən birini tutur. Müharibə illərinə və müharibədən sonrakı dövrə həsr olunmuş filmlər öz yaradıcılıq nöqteyi-nəzərindən bir-birindən fərqlənir, hər biri dram, film-düşüncə, qəhrəmanlıq kinodramı, novella... Lakin hansı janrda, hansı üslubda çəkilməsindən, bədii səviyyəsindən asılı olmayaraq bu filmlərdə vətənpərvərlik, müharibənin törətdiyi dəhşətlər, vəhşiliklər, ayrılıqlar, Bakı və arxa cəbhənin göstərdiyi hünər ön plana çəkil-

mişdir. Filmlərin bir hissəsində müharibə dövrünün Bakısından, onun zəhmətkeş, qayğıkeş əhalisinin əməyindən, cəbhəyə köməyindən danışılır.

Böyük yaradıcılıq yolu keçmiş X.Mirzəzadənin kinematoqrafiya sahəsindəki fəaliyyəti heç də bununla bitmir, o, eyni zamanda bir neçə sənədli filmə də musiqi yazmışdır. Bəstəkar cizgi filmlərindən də yan ötməmişdir. Elə filmlər də var ki, həmin filmlərdə digər bəstəkarların musiqisi ilə yanaşı X.Mirzəzadənin də musiqisindən istifadə olunmuşdur. Azərbaycan klassik musiqisinə olan böyük sevginin nəticəsidir ki, X.Mirzəzadənin yüksək səviyyədə bəstələdiyi hər bir əsər onun yaradıcılığında mühüm yer tutur. Q.Qarayevin bir davamçısı kimi çıxış edərək X.Mirzəzadə kino üçün musiqi yazmağı daim üstün tutmuşdur.

**Dissertasiyanın "Xəyyam Mirzəzadənin 1960 – 1980-cı illərdə yazdığı kino musiqisinin üslub xüsusiyyətləri"** adlı ikinci fəsli iki yarımfəsildən ibarətdir. **2.1. ""Bu, Qum adasında olmuşdur" sənədli filminə musiqi"** adlanır. X.Mirzəzadənin daxilən zəngin, ciddi mövzularla ifadə olunan, dinləyicilərin yadında qalan obrazları yaratmaq kimi parlaq, özünəməxsus istedadı "Bu, Qum adasında olmuşdur" sənədli filminə yazılmış simfonik silsiləsində əsl ifadəsini tapmışdır. Bu, bəstəkarın filmə yazdığı çox gözəl bir musiqi illüstrasiyasıdır. Qeyd etmək lazımdır ki, musiqinin xarakteri ona müstəqil iri həcmli instrumental əsər kimi yaşamaq haqqı vermişdir. Beləliklə, X.Mirzəzadə dinləyicilərə məzmunca zəngin olan səhnələr və obrazlar təqdim edə bilmişdir. Onları təsvir etməyə kömək edən amillər müxtəlif dövr, ənənə və istiqamətlərin dünya musiqi sənətində intonasiya fondunun geniş panoramını təşkil edir. X.Mirzəzadə daim öz dahi müəllimi Q.Qarayevin ənənələrinə dayaqlanaraq, onun qoyduğu yola, yaratdığı istiqamətə sadiq qalmışdır. XX əsr – XXI əsrin əvvəllərində geniş istifadə olunan 12 tonlu mürəkkəb tonallıqlı major – minor sisteminin elementləri Azərbaycan milli musiqi intonasiyaları ilə kompleks şəkildə birləşir. X.Mirzəzadə musiqisində öz yaradıcılıq kredosuna – ilkin intonasiya özəyinin dolğunluğuna və daxili məzmunluğuna sadiq qala bilir. Bu intonasiyadan da mövzunun gələcək inkişafı və işlənməsi törəyir.

**2.2. ""Yeddi oğul istərəm" bədii filmi əsasında Səməd Vurğunun "Komsomol poeması"na musiqi illüstrasiyaları və "İlıq dənizdə buz parçası" bədii filmi əsasında "Dəniz neftçiləri" simfonik süitası"** adlanır. X.Mirzəzadənin kinomusiqisində "Yeddi oğul istərəm" adlı kino filminə yazılan musiqi bəstəkarın ən böyük uğurlarından biridir. Bu, S.Vurğunun 1928-1956-cı illərdə yaradılmış əsərinin üzərinə əsaslanmış filmdir və

sonradan bəstəkarın görkəmli rejissor T.Tağızadənin "Yeddi oğul istərəm" kino filminə yazılan musiqisi əsasında yaradılmış "İllüstrasiyalar"ıdır (1986). Bəstəkar tərəfindən əsərdə əks olunmuş obrazlar həddindən artıq dərin və qabarıqdırlar. Burada onlara xas olan cəsurluq, qətiətlilik, əsl qəhrəmanlıq və bununla yanaşı qəlbi sevgi ilə dolu olan Cəlalın təzahürünü görmək olar. Cəlal və Humayın sevgisindən bəhs edən filmin lirik epizodları dinləyicilərdə dərin iz qoyur. Filmin qəhrəmanları olduqları dövrün və hadisələrin abu-havasını olduqca dolğun tərzdə çatdırırlar. Odur ki, filmin musiqisində də lirika və dramatizm tam vəhdətdə çıxış edir və onun Azərbaycan kino musiqisinin ən dəyərli və yüksək zirvədə duran nümunəsi olduğunu nümayiş edir. Film boyu aydın hiss olunan millilik bu filmin qavranılmasında da xüsusi əhəmiyyət kəsb edir və bununla bağlı olaraq onu qeyd etmək lazımdır ki, bu milliliyi bir faktor kimi təsvir edən bir mühüm başlanğıc kimi X.Mirzəzadənin musiqisi çıxış edir. Ümumilikdə, kinonun vizual xəttini bəstəkarın musiqisindən kənar hiss etmək olmaz. Bu baxımdan "Yeddi oğul istərəm" Azərbaycan kinofilminin çox nadir nümunəsidir ki, bu əsərdə musiqi ümumi dramaturgiyaya çox vacib komponent kimi daxil olur və bəzi səhnələrdə çox həlledici rol oynayır. Qeyd etmək lazımdır ki, bu filmin musiqi milli köklərlə bağlılığını çox gözəl nümayiş edir. X.Mirzəzadənin tematizm kimi musiqi ifadəsi kateqoriyasına özünəməxsus, fərdi və dərin münasibəti yaxşı məlumdur. O, özünün xüsusi, təkrarolunmaz xarakterinə malikdir və bununla da ümumilikdə sənətkarın yaradıcılıq bədii xəttini müəyyən edir. Burada müasir dövrün və milli ənənələrin, yeni dövrün intonasiya fonunun və şifahi ənənəli milli musiqinin səs quruluşunun heyranedici uyğunlaşması baş verir. Yuxarıda qeyd olunanlar öz əksini bilavasitə "İllüstrasiyalar" musiqi materialında tapır. Qeyd etmək lazımdır ki, X.Mirzəzadə nəinki intonasion cəhətdən, həmçinin struktur planda da klassik və müasir atributlar arasında son dərəcə gözəl balans əldə edə bilir. Belə ki, nəzərdən keçirilən əsərin forması özündə sonatalıq (qısaldılmış repriz ilə) və qismən kontrast-mürəkkəb strukturun uyğunlaşmasını əks etdirir. Bəstəkar böyük simfonik heyətin vasitələrindən də mahirliklə istifadə edir. Fakturanın sıxlıq səviyyəsi müəyyən obraz aspektini, yaxud onun inkişafında, ümumilikdə materialın əks olunduğu müddətdə müəyyən mərhələni təqdim etməlidir. Müxtəlif alət tembrlərinin imkanlarının və onların uyğunluğunun qənaətli, lakin kifayət qədər relyefli əks olunması X.Mirzəzadənin müəyyənedici iş prinsipini təşkil edir.

Musiqi mövzularının intonasiya quruluşuna gəldikdə isə burada müəllifin çox da böyük olmayan, lakin şifahi musiqi ənənələrinin ümumi səs

quruluşu üçün səciyyəvi olan detallara diqqəti hiss olunur. Belə ki, materialın əsasını müəyyən milli xüsusiyyətləri xatırladan "səciyyəvi intervalları" daxil edən qısa melodiya elementləri təşkil edir ki, bu da müəyyən milli məqamların "xatırlanmasına" xidmət edir. Bəstəkarın çox kiçik, lakin ifadəli "dənələrdən" qaynaqlanan miqyaslı formanın qurulmasında ustalığı özünü büruzə verir. Burada o, Azərbaycan musiqisinin klassiki olan Üzeyir Hacıbəylinin tematizminin işlənməsi, musiqi baxımından gözəl nailiyyətlərinin davamçısı qismində çıxış edir.

Özünün fərdi müəllif üslubunu X.Mirzəzadə, "İlıq dənizdə buz parçası" (1983) kinofilminin musiqisi əsasında yazdığı "Dəniz neftçiləri" (1988) adlı simfonik musiqi ilə inkişaf etdirir. Kino musiqisinin əsasında qurulmuş süitanın hər bir nömrəsi ifadəlilik baxımından öz üsulları və tapıntıları ilə fərqlənir. Burada o, böyük simfonik orkestrin tam tərkibindən istifadə etmişdir (həmçinin sintezator da əlavə olunub). Suita müxtəlif xarakterli beş hissədən ibarətdir. Hər bir hissə özünəməxsusluğu ilə fərqlənir və bəstəkar hər bir hissəyə ayrıca ad qoyur. Real dünyaya aydın baxış, həssas lirika, fikrin lakonikliyi, məntiqin gücü ilə yaranan emosionallıq bəstəkarın yaradıcılıq dəsti-xəttinə xas cəhətlər məcmusudur. Əsərdə diqqəti cəlb edən əsas amil əsərin intellektual psixoloji məzmunu, obrazların fərdiliyidir[57].

**III fəsil "Xəyyam Mirzəzadənin 1990 – 2008 – ci illərdə yazılan kino musiqisi" adlanır,** iki yarımfəsildən ibarətdir: **3.1.""Güllələnmə təxirə salınır!..." bədii filminə musiqi", 3.2. ""O dünyadan salam" filminin əsasında "Mirzənin söylədikləri" simfonik lövhələri və "Bağ mövsümü" bədii flmi əsasında "Gəzinti" simfonik pyesi."**

Xəyyam Mirzəzadənin 90-cı illərdə çəkilmiş kinofilmlərə bəstələdiyi musiqi öz əsrarəngiz gözəlliyi ilə tamaşaçıların qəlbini oxşamışdır. Müxtəlif janrlarda olan "Zirzəmi" (1990, rej. D.İmanov), "O dünyadan salam" (1991, rej. T.Tağızadə), "Mənim ağ şəhərim" (1994, rej. M.Fərzəlibəyov), "Fransız" (1995, rej. V.Mustafayev) filmlərinin musiqisi xüsusi özünəməxsusluğu ilə seçilir.

Digər əsərlər "Zirzəmi" və "O dünyadan salam" filmlərinin musiqisi əsasında bəstəkar süita, simfonik lövhələr kimi dəyərli əsərlərini yaratmışdır.

Bəstəkarın "Zirzəmi" kinofilminə 1990-cı ildə yazdığı musiqi, estrada simfonik orkestri üçün yazılmış estrada əsəridir. "Take five" (beş çərək) adlandırılmış süitanın ətraflı təhlilini nəzərdən keçirmişik. X.Mirzəzadə estra-

---

[57] Kazımzadə A. Azərbaycan kinosu. Filmlərin izahlı kataloqu:1898 – 2002. Bakı, "Nağıl evi", 2003, 1-ci cild, s.117

da instrumental ansamblı üçün işlədiyi əsərində (Alleqro moderato) 5/4 ölçüsündə cəmlənən məşhur dünya caz musiqisinin ritmik düsturunun işlənməsinə qarşı fərdi və dərin özünəməxsus yanaşmanı nümayiş etdirmişdir. Qeyd olunan ritmik formula burada leytmotivə, ostinato fonuna çevrilmişdir və əvvəldən axıra qədər bütün əsər boyu hiss olunur. Lakin ümumilikdə təkrarolunmamazlıq, şəffaflıq və rəngarənglik istər melodiya quruluşuna, istərsə də harmonik dilinə nüfuz edən intonasiya quruluşu ilə əsaslandırılmışdır. Əgər akkordika özündə kifayət qədər müəyyən olunmuş dərəcədə caz üslubuna xas olan xüsusiyyətləri əks etdirirsə, melodiya sənətkarın xarakterini, əhvalını və düşüncələrini əks etdirən müəllif işini təcəssüm etdirir. Bəstəkar suitanın tematik həllini, onun intonasiya xüsusiyyətini bəstəkarlıq təcrübəsinə əsaslanaraq özünəməxsus şəkildə dinləyicilərə çatdırmış, musiqili-ifadə vasitələrini gözə çarpacaq dərəcədə zənginləşdirmişdir. Təkrarolunmazlıq, saflıq, şəffaflıq və rəngarənglik intonasiya quruluşunda öz əksini tapmışdır. Orkestr tərkibi də diqqəti cəlb edir, burada bəstəkar klassik orkestr üçün ənənəvi olan alətlərdən əlavə gitara, bas-gitara, sintezator, alt-saksafondan istifadə etmişdir. Alt-saksafon bütün əsər boyu aparıcı və solist alət kimi çıxış edir.

**3.1. ""Güllələnmə təxirə salınır!..." bədii filmi":** təhlili həyata keçmiş əsər 2002-ci ildə çəkilmiş "Güllələnmə təxirə salınır!..." kinofilminə yazılan musiqidir. Əsərin həcmliliyi onun müstəqil bir əsər kimi səslənməsinə imkan verir. O, 1941-45-ci illər müharibəsindən sonra insanların həyatından real faktları şərh edir. Burada ziddiyyətlərin vahidliyi və qanuna görə ona riayət etməyənlərə bəraətin qazandırılması ideyası açıqlanır. Lakin bu insanlar gənc olsalar da, xeyirxah işlər görmüşlər: müharibəyə gedərək qadınlarını, ana və uşaqlarını, onların namusunu qoruya bilmişlər[58].

Bu kompozisiya xüsusi seçilmiş instrumental tərkib üçün çoxhissəli silsiləni özündə əks etdirir. Belə ki, doqquz nömrədən ibarət silsilədə klassik simfonik orkestrin ənənəvi tərkib hissələri ilə yanaşı (fleytalar, qoboylar, klarnetlər, fortepiano, birinci və ikinci violinlər, altlar, violonçellər) iki sintezator, bas-gitara da mövcuddur. Bu, əsərin obrazlarının və mövzularının səsləndirilməsinə xüsusi xarakter gətirir, materialın açıqlanmasına özünəməxsus, təkrar olunmaz çalarlar bəxş edir. Silsilənin hər bir hissəsi (6 və 9-cu nömrələri istisna olmaqla) lakonikliyi, yığcamlığı və eyni zamanda, müəyyən, özünəməxsus obrazın nümayiş etdirilməsində böyük zənginliklə

---

[58] https://az.wikipedia.org/wiki/G%C3%BCll%C9%99l%C9%99nm%C9%99_t%C9%99xir%C9%99_sal%C4%B1n%C4%B1r!..._(film,_2002), "Güllələnmə təxirə salınır!..." (film, 2002)

fərqlənir. Burada klassik musiqinin kateqoriyaları aydın açıqlanmışdır – melodiya, akkordika (harmoniya), polifoniya. X.Mirzəzadə dinləyicilər qarşısında mürəkkəb, obrazlarla və müxtəlif xarakterlərin çalarları ilə zəngin kompozisiyanı açıqlayır. Həyata keçirilmiş təhlilin göstərdiyi kimi, o, öz fikrini açıqlamaq niyyəti ilə müxtəlif kompozisiya-texniki vasitələrdən istifadə edir. Bəstəkar incə və təbii şəkildə müxtəlif tarixi dövrlərə, mədəniyyətlərə məxsus olan səs sistemlərini tətbiq edir və bu zaman anlaşılmaz vahidlik əldə etməyi bacarır. Bir müəllif kimi onun üçün əsas məqam müəyyən obrazın nümayiş etdirilməsi, əsərin musiqi formasının yaradılması zaman onun tam şəkildə açıqlanmasıdır. Ümumilikdə, Xəyyam Mirzəzadənin yaradıcılığını fərqləndirən dərin fəlsəfi əsas burada da kino musiqisi janrının gözəl nümunəsində öz əksini tapmışdır.

**3.2. ““O dünyadan salam” filminin əsasında “Mirzənin söylədikləri” simfonik lövhələri və “Bağ mövsümü” flmi əsasında “Gəzinti” simfonik pyesi”** adlanan yarımfəsildə iki əsərin ətraflı təhlili yer almışdır. “Mirzənin söylədikləri” simfonik lövhələri Cəlil Məmmədquluzadənin “Ölülər” pyesinin motivləri əsasında 1992-ci ildə, rejissor Tofiq Tağızadə tərəfindən çəkilmiş “O dünyadan salam” (ssenari müəllifi T.Tağızadə) adlı filminə yazılan musiqi əsasında tərtib olunub. “Mirzənin söylədikləri” simfonik silsilənin musiqisi çox maraqlıdır. X.Mirzəzadə bu əsərində də özünə xas olan üslub saflığını və əsl ustalığını göstərmiş olur. Bəstəkar burada özünün çox intizamlı və dərin düşünən musiqiçi olduğunu bir daha sübut edir. Bununla yanaşı X.Mirzəzadə əsərində müxtəlif ənənələrə istinad edir və onların çatdırılmasında müəyyən qeyri standart tapıntıları həmişəki kimi tapmaq olur. Ədəbiyyatla dərindən maraqlanan bəstəkar daim Mirzə Cəlil yaradıcılığına müraciət etmişdir. Ədibin sənətkarlığını daim uca tutan X. Mirzəzadə onun həmişə aktual və müasir səslənən bədii-publisist əsərlərini yüksək qiymətləndirmişdir. “Mirzənin söylədikləri” altı hissədən ibarət olan silsilədir və ümumilikdə təhlil etdiyimiz əsər öz yığcamlığı və sürətli inkişafı ilə xoş təsir bağışlayır. Unutmaq olmaz ki, söz açdığımız musiqi kino üçün yazılıb və məhz buna görə simfonik əsərin hər bir ayrı hissəsi, başqa sözlə desək onun altı lövhəsi olduqca yadda qalandır, C.Məmmədquluzadənin “Ölülər” pyesinin bəzi obrazlarını və epizodlarını canlandırır.

Kompozisiya baxımından əsər süitanı xatırladır və burada lövhələrin (hissələrin) temp fərqliliyi (ağır, cəld və s.), müxtəlif səhnə-obrazlarla bağlılığı çox təbii olaraq süitaya bənzəyir, lakin burada bəstəkar əsərin kompozisiyasını özünəməxsus yolla çatdırır. İki dramaturji xətti olan silsilədə birinci xətt sadə kənd camaatını, onların sadəlövh hisslərini, azərbaycan kən-

dini gözəl musiqi ilə xarakterizə edir (II, III, VI hissələr), ikinci dramaturji xətt isə Şeyx Nəsrullah və İsgəndər obrazları ilə əlaqəlidir. Qəhrəmanlara aid olan xasiyyətlər, onların daxili aləmi silsilədə fərqli variantlarda təsvir olunmuşdur. Lövhələrin orkestr dili öz rəngarəngliyi, parlaqlığı ilə fərqlənir. Əsərdə orkestr imkanlarından ustalıqla istifadə bəstəkar X.Mirzəzadə üçün daim önəmli yerlərdən birini tutur. Orkestrin hər bir ayrı-ayrı qruplarını xüsusi incəliklə istifadə edən bəstəkarın orkestr sahəsində ustalığı burada da özünü göstərmişdir.

C.Məmmədquluzadənin "Ölülər" tragikomediyasının bu silsilənin əsasında durması bir daha bu əsərin böyük ədəbiyyat nümunəsi olduğunu və onun ölməzliyini sübut etmişdir.

**"Gəzinti" simfonik orkestri üçün kompozisiya -** "Bağ mövsümü" (1985) kinofilminə yazılmış musiqi Azərbaycan incəsənətində əhəmiyyətli yerlərdən birini tutur. Yazıçı Elçinin "Dolça" povesti əsasında ekranlaşdırılmış "Bağ mövsümü" filminin musiqisi əsasında Xəyyam Mirzəzadə sonralar "Gəzinti" (2008) adlı konsert tipli pyes yaradır. Pyesdə daxili məzmunluq, dolğunluq, musiqi fikrinin daha qabarıq təqdim olunması, fikirlərdə ciddilik və dərinlik bəstəkarın dəsti-xəttinə xas olan keyfiyyətlərdən irəli gəlir. Bu, müəllifin tətbiqi musiqi janrına ciddi münasibətinin növbəti nümunəsidir. Burada o, öz müəllimi – qeyd olunan sahəyə əvəzolunmaz töhfələr vermiş dahi Azərbaycan bəstəkarı Q.Qarayevin ən yaxşı ənənələrinin bilavasitə xələfi kimi çıxış edir. Ekranda nümayiş etdirilən hadisələri tərtibata salmaq məqsədi ilə materialın əhəmiyyəti, onun daxili məzmunluğu, məna dolğunluğu simfonik musiqi konsertlərində ifa olunmaq üçün nəzərdə tutulmuş müstəqil kompozisiya yeni tərzdə işıqlandırılmışdır. Eləcə də musiqi fikrinin təqdim olunmasında və onun formalaşdırılmasında ciddilik və dərinlik - demək olar ki, bütün işlərində sənətkar olan X.Mirzəzadənin şəxsiyyətinə məxsus olan keyfiyyətdir. "Gəzinti" (Moderato, As-dur) bu faktın bilavasitə təsdiqi və növbəti sübutudur. X.Mirzəzadə burada Q.Qarayev simfonizminin davamçısı kimi çıxış edir. Bu əsərdə də müəllifin simfonizmə meyli danılmazdır.

Əsərin təhlili bəstəkarın musiqi yaratmasında hadisələrə orijinal və yüksək professionallıqla yanaşma tərzində ümumilikdə bir sıra təfərrüatların üzə çıxmasına kömək etmişdir. Fərdi müəllif yanaşması mövzuluq, məqam-intonasiya quruluşu, harmoniya və polifoniya kimi kateqoriyalarda, orkestr vasitələrinin traktovkası prinsiplərində və təbii ki, musiqi formasının dramaturgiyasında öz əksini tapır.

"Gəzinti"nin məqam sahəsindən söhbət açarkən qeyd etmək lazımdır ki, burada XX əsr ərzində və XXI əsrin əvvəllərində qüvvədə olan mürəkkəb tonallığa malik (12 tonlu) major-minor sisteminin elementlərinin, həmçinin, milli musiqinin incə uyğunlaşması baş verir. Kompozisiyanı açan aparıcı mövzunun iştirak etdiyi major tonallığının (As-dur) basda səslənən tonika üçsəslisinin kənar – lya-bemol və mi-bemol səslərinə açıq-aydın istinad dəlalət edir. Bu məşhur mövzu kompozisiyanın əsas xəttini təşkil edir. Bəstəkar ənənəvi ifadə vasitələrindən istifadə edərək, şəffaf, işıqlı, müsbət obrazlarla zəngin, təkrarolunmaz bir əsər yaratmışdır. Burada o, öz yaradıcılığının aparıcı prinsiplərindən birinə sadiq qalır: tematizmin dərinliyi və məzmunluğu, çoxcəhətliyi, milli və ümumdünya bəstəkarlıq təcrübəsinin ən yeni nailiyyətlərinin və müəllif ustalığının sintezi.

**Nəticədə** "Xəyyam Mirzəzadə yaradıcılığında kino musiqisinin rolu" adını almış tədqiqata yekun vurulur. Yuxarıda qeyd olunduğu kimi, burada Xəyyam Mirzəzadənin həyat və yaradıcılığının ümumi baxış, kino filmlərinin üslub xüsusiyyətləri, yeddi əsərin ətraflı təhlili təqdim olunmuşdur.

X.Mirzəzadə kino musiqisi üzərində də çox məhsuldar çalışmış, əsl sənətkarlıq nümunələri yaratmışdır. Bəstəkar çox böyük məsuliyyətlə, həvəslə ölkəmizdə istehsal olunan kinofilmlərə musiqi yazır. Otuzdan çox filmin musiqisi, hər biri ayrı-ayrılıqda böyük sənət əsəridir, həm də maraqlı bir fakt kimi bu əsərlərdə X.Mirzəzadə üslubu aydın hiss olunur. Bu musiqini dinləyərkən əsərin müəllifinin kim olduğunu dərhal anlaya bilirsən.

Tam məsuliyyətlə demək olar ki, bəstəkar kino kimi janrı xüsusi həssaslıqla hiss edir və heç vaxt onun özünəməxsusluğunu, incəliklərini nəzərdən qaçırmır. X.Mirzəzadə kino dramaturgiyasının ümumi gedişini, eləcə də hər bir kadrın rolu və əhəmiyyətini çox düzgün dərk edir. Odur ki, onun musiqisi ekranda təsvir olunanlarla üzvi surətdə yaranır və bunun hesabına musiqi filmin ayrılmaz və vacib komponentinə çevrilir.

"Yeddi oğul istərəm" (1970, rejissor T.Tağızadə) 20-ci illər inqilabi hadisələrin qurbanı olan komsomolçuların taleyi haqqında qəhrəmani bir filmdir.

Əsərdə əks olunmuş obrazlar bəstəkar tərəfindən daha dərin və qabarıq şəkildə ifadə olunmuşdur. Müasir zamanın və adət-ənənələrinin, şifahi ənənəli milli musiqinin səs quruluşunun əvəzolunmaz uyğunlaşması baş verir. Bütün bunlar öz əksini bəstəkarın bu filmin musiqisi üzərində yazdığı "İllüstrasiyalar "da (1986) tapmışdır. X.Mirzəzadənin bu filmə yazdığı möhtəşəm simfonik musiqidə bütün faciəni hiss etməmək qeyri mümkündür.

"İlıq dənizdə buz parçası" (1983, rejissor Y.Qusman) filmi əsasında X.Mirzəzadə "Dəniz neftçiləri" simfonik suitasında özünəməxsus fərdi üs-

lubunu davam etdirir. Filmin musiqisi əsasında qurulmuş musiqi nömrələri ifadəlilik baxımından öz quruluşu, hissələr arası tematizmin bağlılığı ilə eyni anda lakonikliyi ilə seçilir.

Kinofilmlərə yazdığı musiqi əsasında digər simfonik əsərləri bəstəkarın bu janra marağından irəli gəlmişdir. "O dünyadan salam" (1992, rejissor T.Tağızadə) kinofilminin musiqisi əsasında yazılmış "Mirzənin söylədikləri" (2004), altı nömrədən ibarət silsiləsi bəstəkarın dinləyicilərə bəxş etdiyi daha bir gözəl sənət nümunəsidir. Silsilə proqramlı əsərdir, əsərin ümumi adı ilə yanaşı hər bir hissəsinin də müəyyən adı var və bununla da əsərin proqramlı olması bir daha müəyyən olunur. Ayrı-ayrı nömrələrin müxtəlif xarakterli olması, bunların bir birilə növbələşməsi süita janrının xüsusiyyətindən irəli gəlmişdir. Ümumi formaya gəlincə isə silsilə daxilində olan nömrələrin hər biri müstəqil kiçik əsər sayıla bilər və silsilədə üç hissəli forma cizgilərini görmək mümkündür. Giriş – birinci nömrə, ikinci, üçüncü nömrələr – formanın birinci hissəsini, dördüncü, beşinci nomrələr ikinci hissəni, finalı isə altıncı lövhə təşkil edir. Bu əsərin mərkəzində duran əsas ideya insanların sadəliyini, paklığını və xeyirxahlığını ön plana çıxarmaqdır. Süitalarda obrazların relyefiyi, həcmliliyi və müstəqilliyi diqqəti cəlb edir. Konsert xarakterli müstəqil çoxhissəli simfonik kompozisiya yaranmişdir.

Hər kinofilmə yazılan musiqi heç də müstəqil həyata layiq olmur, söhbət yalnız parlaq, xüsusi bədii məna kəsb edən musiqidən gedir və burada kino ekranından azad, sərbəst yaşamağa qadir olan əsərlər nəzərdə tutulur. Dünya musiqisində kino musiqisinin əsasında yazılan əsərlərin sayı çoxdur və onların məzmun və janr müxtəlifliyi gözə çarpır.

X.Mirzəzadə musiqi tarixində mövcud olan müxtəlif dövrlərin musiqi cərəyanlarının üslub xüsusiyyətlərini özünəməxsus tərzdə öz yaradıcılığında birləşdirə bilmişdir.

Bəstəkarın milli mənbələrə əsaslandığı bütün əsərlərində aydın şəkildə müşahidə olunur. Bu xüsusiyyət X.Mirzəzadənin şifahi ənənəli Azərbaycan professional musiqisində istifadə olunan məqamlarının səs sırası üçün son dərəcə xarakterik və səciyyəvi olan haçalanmış oktava intervalına müraciətində təzahür olunur.

X.Mirzəzadə zəngin səhnələr və obrazlar yaradıb təqdim edə bilmişdir. Onları təsvir etməyə yardım edən amillər müxtəlif dövrlər, ənənələrin dünya musiqi sənətində intonasiya bazasının geniş panoramını təşkil edir. Qarşısına qoyduğu ideyaları həyata keçirmək üçün milli ənənələrin, xalq musiqisinin dərinliklərinə istinad etmişdir, dərindən öyrənib mənimsə-

mişdir. Öz yaradıcılığında bütün əsas məqamlardan – Rast, Şur, Segah, Çahargah, Bayatı-Şiraz, Şüştər, Humayun məqam-intonasiyalarından geniş istifadə etmişdir. Məsələn: "Mirzənin söylədikləri" süitasında Humayun, Rast, Segah, Şur məqamları musiqinin əsasını təşkil edir. Azərbaycan məqamlarinın istifadəsindən əlavə bəstəkar qədim yunan ladlarından, xüsusən frigik, dorik və miksolidik ladlarından istifadə etmişdir.

X.Mirzəzadə daim öz dahi müəllimi Q.Qarayevin ənənələrinə dayaqlanaraq, onun qoyduğu yola, yaratdığı istiqamətə sadiq qalır. XX əsr – XXI əsrin əvvəllərində geniş istifadə olunan 12 tonlu mürəkkəb tonallıqlı major – minor sisteminin elementləri Azərbaycan milli musiqi intonasiyaları ilə kompleks şəkildə birləşir. X.Mirzəzadə musiqisində öz yaradıcılıq kredosuna – ilkin intonasiya özəyinin dolğunluğuna və daxili məzmunluğuna sadiq qala bilir. Bu intonasiyadan da mövzunun gələcək inkişafı və işlənməsi törəyir.

Ümumiyyətlə, əsərin əvvəlində şəffaf, relyefli və yadda qalan mövzu özəyinin nümayiş etdirilməsi bəstəkarın yaradıcılığına xas prinsipdir. Eyni zamanda onun musiqisində klassisizm, romantizm və impressionizm cərəyanlarına yaxınlıq hiss olunur.

X.Mirzəzadə əsərlərində monotembr prinsipindən istifadə etmişdir. Orkestr fakturasında tembral və ritmik ostinato istifadə olunur, mövzular rəngarəng, dəqiq və kompakt formada təqdim olunur. Polifonik üslubdan geniş istifadəsi inkişafın axıcı, dolğun olmasına imkan yaradır. Caz üslub elementlərinə əsaslanan melodiyalara da rast gəlirik (məs: "Take five"). Akkordika çox zəngin və rəngarəngdir – septakkordlar, nonakkordlar, böyük major septakkordu ("Gəzinti"), neapolitan sekstakkordu, üçsəsliklər, klaster lakriya pentaxord, ellipsis ("Take five") haçalanmış oktava, akkord blokları, lad modelləri ("Güllələnmə təxirə salınır!..."). Monotematizm, ostinato qatları, orkestrdə ahəngdar "səpələnmələr", ritmik transformasiya prinsipləri "Mirzənin söylədikləri" süitasında öz əksini tapır.

Faktura dramaturgiyasında simmetriya – üç hissəlilik prinsipi izlənilir. Bəstəkarın orkestr ilə iş üslubu fərdiliyi, şəffaflığı, özünəməxsusluğu və rəng koloriti fərqlənir. X.Mirzəzadə ayrı-ayrı alətləri və qrupları seçir, bu tərkib bəstəkarın fikrini daha dəqiq, daha aydın çatdırılmasına imkan yaradır. O, orkestrdə ənənəvi taxta, mis nəfəs və simli alətlər ilə yanaşı müxtəlif zərb alətlərindən də istifadə edir - ksilofon, metallofon, vibrafon, altsaksafon, sintezator, gitara və bas gitara əlavə olunur.

Yaradıcılıq prinsiplərinə sadiq qalaraq, bəstəkar tematizmin dərinliyini, çoxcəhətliliyni, milli və ümumdünya bəstəkarlıq təcrübəsinin ən yeni nailiyyətlərini öz müəllif üslubu ilə sintez edir.

X.Mirzəzadə musiqisinin hər bir sahəsində əsl ustad kimi çıxış edir və əsərlərin bədiiliyi onun üçün hər zaman əsas məsələlərdən biri olaraq qalır.

Onun kino musiqisi intonasiya müxtəlifliyi ilə seçilir. Yaradıcılığının hər bir sahəsində olduğu kimi, kino musiqisində də bəstəkar melodikası musiqinin başlıca dayağı və musiqi əsərinin milli əsası kimi götürülür. Melodiya – intonasiya başlanğıcı X.Mirzəzadənin əsərlərində ən vacib yerlərdən birini tutur. Bəstəkarın kino musiqisinin təhlili ilk növbədə onu göstərir ki, onun musiqi irsi milli məqam intonasiya xüsusiyyətləri və müasir bəstəkar yazı üslubu ilə sıx bağlı olaraq vəhdət təşkil edir.

X.Mirzəzadə kino musiqisinin təhlili Şərq və Qərbin, milliliyin, ənənəvi klassik formalarının sintezinin nümunəsidir. Bu musiqini təhlil edərkən bəstəkarın köklərə dərindən bağlılığı müəyyənləşdirilir. Bəstəkarın kino musiqisi onun yaradıcılığının zənginliyi və müxtəlifliyini ifadə edən bir sahədir. Burada musiqi incəsənətinin inkişafı prosesində mövcud olan kontrast tərəflərin vəhdəti öz əksini tapmışdır.

X.Mirzəzadə nəinki görkəmli bəstəkar, icitimai xadim, eyni zamanda çoxlu sayda tələbə yetişdirən tələbkar pedaqoqdur. Onun tələbələrinin əksəriyyəti müəllimdən mənimsədikləri ənənələri ölkəmizdə və xaricdə layiqincə davam etdirirlər.

X.Mirzəzadə hər bir əsərində incəsənətə öz münasibətini nümayiş etdirmiş və öz yüksək professional mövqeyini qabarıq şəkildə göstərə bilmişdir. Bəstəkarın Azərbaycan kino musiqisinə müraciəti bu janra dəyərli töhfələr verməsi ilə nəticələndi və musiqi irsimizi zənginləşdirərək sonrakı nəsillər üçün örnək oldu.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Xəyyam Mirzəzadənin yaradıcılığında kino musiqisinin rolu. /Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı, Bakı, 2012, -2 s.

2. X.Mirzəzadənin Azərbaycan musiqi sənətinə lövhələri. //“Konservatoriya”. Azərbaycan Milli Konservatoriyası, №2, 2013, s.64-67.

3. Xəyyam Mirzəzadənin “Gəzinti” simfonik orkestri üçün kompozisiyası. //“Müasir Mədəniyyətşünaslıq” - elmi, metodik, publisistik jurnalı, Bakı, №2 (16), 2014, s.19-26.

4. “Take Five” Xəyyam Mirzəzadə. //“Rast müzikoloji Dergisi”, 3-cü cild, №2, 2015 (Türkiyə), s.1043 – 1051.

5. X.Mirzəzadənin "Güllələnmə təxirə salınır!..." kinofilminə musiqisindən orkestr süitasının bəzi üslub xüsusiyyətləri. //"Müsiqi Dünyası" jurnalı, 2015, №3/64, s.81-88.

6. Xəyyam Mirzəzadənin yaradıcılığında milli ənənələrə istinad. / XI international turkich culnier, art and protection of cultural heritage sympsium (art activity, 07 – 11 september 2015, Verona – İtaly), 3s.

7. Xəyyam Mirzəzadənin "Bu, Qum adasında olmuşdur" (1962) kinofilminə yazdığı musiqinin bədii struktur təhlili və üslub xüsusiyyətləri. // "Harmoniya" beynəlxalq elektron jurnal №15, 2016, 5s. http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=615&s=1&iss=27

8. Səməd Vurğunun "Komsomol poeması"na X.Mirzəzadənin musiqi illüstrasiyaları. // "Sənət akademiyası" jurnalı № 1(5), 2018

**Айнур Алихан гызы Алиева**

## Роль киномузыки в творчестве Хайяма Мирзазаде

## РЕЗЮМЕ

Настоящая диссертация посвящена роли киномузыки в творчестве композитора Хайяма Мирзазаде.

Диссертация состоит из введения, трех глав, шести разделов, заключения, библиографии, сайтографии, перечня кинофильмов, нотографии.

Во введении обосновывается актуальность, степень обработки темы и ее новизна, методология, ее теоретическое и практическое значение, цель и обязанности, объект и предмет исследования, фактический материал, апробация и структура работы.

В этой диссертации мы становимся свидетелями того, какое важное место занимают анализируемые произведения в творчестве композитора. Здесь дается комплексный анализ и образно-эмоциональный обзор самостоятельных симфонических произведений написанных на основе киномузыки Хайяма Мирзазаде.

**I глава «Роль композитора Хайяма Мирзазаде в Азербайджанской музыкальной культуре»** состоит из двух подразделов: **1.1. «Общая характеристика жизни и творчества Хайяма Мирзазаде», 1.2. «Азербайджанская киномузыка и творчество Хайяма Мирзазаде».**

**II глава** называется **«Стилистические особенности киномузыки Хайяма Мирзазаде 1960 – 1980 – х годов»**. Глава состоит из двух подразделов: **2.1. Музыка для документального фильма «Это было на Песчаном», 2.2. Музыкальные иллюстрации на «Комсомольскую поэму» Самеда Вургуна к художественному фильму «Семеро сыновей моих» и симфоническая сюита «Морские нефтяники» на основе художественного фильма «Льдина в теплом море».** В этом разделе были всесторонне проанализированы вышеназванные произведения.

**III глава «Киномузыка Хайяма Мирзазаде, написанная в 1990 – 2008 годы»** состоит из двух подразделов: **3.1. Музыка к художественному фильму «Расстрел переносится», 3.2. Симфонические табло «Высказывания Мирзы» на основе художественного фильма «Привет из того мира» и симфоническая пьеса «Прогулка» на основе художественного фильма «Дачный сезон».**

**В заключении** даются выводы и обобщения проведенного исследования.

**Aynur Alikhan Aliyeva**

**The role of film music in the creativity of Khayyam Mirzazadeh**

**SUMMARY**

This thesis is dedicated to the significance of the role of film music in the creativity of composer Khayyam Mirzazadeh.

Thesis consists of introduction, three chapters, six sections, conclusion, a list of films, bibliography, siteography and notography.

The relevance, the level of study of the topic and its novelty, methodology, investigation of theoretical and practical significance, aims and duties, the object and subject of the study, factual materials, the approbation and structure of the study are substantiated in the introduction.

We once more witness the importance of the works analyzed in this chapter in the composer's creativity. Here are given, comprehensive analysis and figurative-emotional review of independent symphonic works written on the basis of film music by Khayyam Mirzazadeh.

**I chapter** entitled **"Azerbaijani music culture and composer Khayyam Mirzazadeh"** consists of two sub – chapters: **1.1. "General characteristics of Khayyam Mirzazadeh's life and creativity", 1.2. "The film music of Azerbaijan and Khayyam Mirzazadeh's creation".**

**II chapter** is entitled "**Stylistic features of the film music of 1960 – 1980 of Khayyam Mirzazadeh".** The chapter consists of two sub – chapters: **2.1. "Music for documentary "It's been on Gum Island"", 2.2. Musical illustration to "The Komsomol poem" by Samad Vurghun on the basis of the feature film "My seven sons" and symphonic suite "Sea oil workers**" **on the basis of the feature film "Floe in the warm sea".** The works mentioned in these sections are analyzed in detail.

**III chapter** entitled **"Film music of Khayyam Mirzazadeh written in 1990 – 2008"** consists of two sub – chapters. These sections are entitled **3.1. Music for film "Shooting is delayed!...", 3.2. Symphonic boards "Those said by Mirza" on the basis of the film "Greetings from that world" and the symphonic play "Walking" on the basis of the film "Garden season"**.

Generalization and results of musical analysis carried out in the process of the study of thesis are clarified in the **conclusion**.

Çapa imzalanıb: 19.10.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**АЙНУР АЛИХАН гызы АЛИЕВА**

# РОЛЬ КИНОМУЗЫКИ В ТВОРЧЕСТВЕ ХАЙЯМА МИРЗАЗАДЕ

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание учёной степени**
**доктора философии по искусствоведению**

**Баку – 2018**